UOT 316
DOI: https://doi.org/10.30546/19063.2025.02.11101

# QLOBAL MİQRASİYANIN AZƏRBAYCANIN GEOSİYASİ MARAQLARINA TƏSİRİ

**TELMAN ƏLİMUSA OĞLU NİFTALİYEV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Humanitar fənlər kafedrasının*
*dosenti, sosialogiya üzrə fəlsəfə doktoru*

*Azərbaycan Respublikası,*
*Bakı ş. İstiqlaliyyət küçəsi, 6*
*E-mail: niftaliyev1961@gmail.com*

**XÜLASƏ**

Beynəlxalq miqrasiyanın elmi tədqiqi müasir dövrdə xüsusi aktuallıq kəsb edir, çünki miqrasiyanın səbəblərini və nəticələrini dərk etməklə hökumətlər daha məqsədyönlü siyasət hazırlaya bilərlər. Miqrasiya, iqtisadi, sosial, siyasi və ekoloji aspektlər də daxil olmaqla, bir çox qarşılıqlı təsir edən amilləri əhatə edir.

Bu baxımdan, beynəlxalq miqrasiyanın idarə olunması yenilənən dünyanın mühüm bir parçası olan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

**Açar sözlər:** *miqrasiya, qloballaşma, qaçqın, imiqrant, modernləşmə.*

Hazırda dünya nizamının formalaşmasına təsir göstərən, beynəlxalq münasibətlərin xarakterini müəyyən edən və gündəminə çevrilən özünəməxsus yeni problemlər meydana gəlir.

Beynəlxalq münasibətlər sistemi formalaşdığı vaxtdan bəri yaşanılan zaman və tarixdən asılı olaraq hər bir mərhələdə müəyyən fərqli xüsusiyyətlərə, çağırışlara və inkişaf meyillərinə malik olur. Miqrasiya axınlarının tənzimlənməsi sahəsində Qərb dövlətlərinin siyasətinin dərin böhran yaşaması ilə müşayiət edilən, miqrant faciəsi və humanitar fəlakət həddinə çatan proseslər hazırda qlobal gündəmin ən ağır mövzusuna çevrilmişdir.

Beynəlxalq miqrasiyanın ənənəvi deyil, fərqli səbəblərdən və dövlətlərarası ziddiyyətlərdən irəli gəldiyi bildirilir.

Miqrasiya axınları tarixən bütün dövrlərdə mövcud olmuş, dünyada nəinki ayrı-ayrı ölkələrin, hətta bütöv qitələrin yaranması və inkişafı məhz miqrasiya fenomeni sayəsində baş vermişdir. Buna nümunə olaraq ABŞ-nin və Kanadanın timsalında Şimali Amerika qitəsini göstərə bilərik.

Tarix boyu miqrasiya prosesləri dünyanın demoqrafik xəritəsinin formalaşmasında əhəmiyyətli rol oynayıb. Əhalinin miqrasiyası çoxsahəli sosial proses kimi müasir həyat tərzinin əsas əlamətlərindən biri, ayrılmaz tərkib hissəsi və onun zəruri elementi kimi çıxış edir.

"Dövlətlərin daxili həyatında siyasi sabitliyin qorunmasına yönəlmiş qərarların rolu artdıqca miqrasiya və miqrantlar müvafiq institutlar tərəfindən həm sosial-iqtisadi, həm də siyasi tənzimləmə obyektinə çevrilir. Miqrantlar isə öz növbəsində, siyasi proseslərin fəal iştirakçıları qismində çıxış edirlər" [1,s 82].

Amerikalı tədqiqatçı T. Neyl qeyd edir ki, "Bu gün bütün başqa fenomenlər arxa plana keçib. Bütün nəzərlər miqrantlara yönəlib. İnsanlar hətta siyasi fiqurları, prezidentliyə namizədləri belə unudub, miqrant fiquru və miqrasiya hamının diqqət mərkəzindədir" [2.s.34].

XXI yüzilliyin siyasi tarixində beynəlxalq münasibətlər sistemində baş verən proseslərin təkanverici qüvvəsi kimi miqrasiya, əsrin simvolu kimi isə miqrant fiquru mərkəzi yer tutmaqdadır.

Müasir dövrün qloballaşma, modernləşmə, geosiyasət və digər problemlərin tədqiqatçısı Z.Baumanın fikirləri də maraqlıdır. O, qeyd edir ki, insanlar hamısı miqrant kimi doğulmaya bilər, ancaq gec-tez hamı miqrant ola bilər [3.s.101].

Bu gün dünyada hər 122 nəfərdən birinin qaçqın, onlardan yarısının isə uşaqlar olduğuna dair statistika nəinki təşviş doğurur, həm də planetin gələcəyini sual altına qoyur. 2015 –ci ilin iyun ayında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) yaydığı "Qlobal tendensiyalara dair" hesabat müharibə, münaqişə və təqiblər ucbatından köçkün düşmə hallarının indiyədək qeydə alınmış ən yüksək sürətlə artmasını göstərir. 2005-ci ildə 37,5 milyonla müqayisədə, 2014 –cü ilin sonunda 59,5 milyon insan zorla didərgin salınıb. Əsas artım 2011-ci ilin əvvəlində Suriyada müharibə yarandığı vaxtdan başlayıb və bu müharibə dünyada köçkünlüyə rəvac verən ən böyük səbəbə çevrilib. 2014-cü ildə hər gün orta hesabla 42.500 insan qaçqına, sığınacaq axtarana və ya məcburi köçkünə çevrilib ki, bu da cəmi dörd il ərzində dördqat artım demək-

dir. Statistika indi dünyada hər 122 nəfərdən birinin ya qaçqın, ya da məcburi köçkün olduğunu desə də reallıqda bu rəqəmin fərqli olduğunu sezmək çətin deyil. Şimali Afrika, İraq və Suriyada baş verən hadisələr nəticəsində təkcə 2014-cü ildə 2013-cü ildəkindən 45% çox qaçqın miqrant Avropaya gəlmişdir. Aralıq dənizində baş verən miqrant faciəsi Avropa üçün əsl bəlaya çevrilməkdədir. 35 milyon miqrantın yaşı 20-ni, 40 milyon qaçqının yaşı isə 20-29 yaşı əhatə edir [4].

Azərbaycanın tutduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe, yürütdüyü daxili və xarici siyasət dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur. Bu reallıq həm bölgənin, həm də ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir.

Statistikaya görə, bu gün yer üzündə hər 8 saniyədən bir insan doğulur, hər 13 saniyədən bir insan vəfat edirsə, hər 32 saniyədən bir insan beynəlxalq miqranta çevrilir. Dünyaya gələn hər bir insanın miqrant olmaq potensialı problemin nəinki ciddi narahatlıq doğurmasına, həmçinin yaxın gələcəkdə böyük təhdidə çevrilməsinə əsas yaradır.

XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının üzləşdiyi və həllini 44 günlük müharibə ilə həyata keçirən ümummilli problemin Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri, həm də nəticəsi kimi də məhz məcburi-zorakı miqrasiyanın, münaqişənin həllində maraqlı olmayan geosiyasi güclərin, "ikili standartlar" siyasətinin mövcudluğu da mövzunun aktuallığı ilə səsləşən problemlərdəndir.

Azərbaycan öz haqqını və beynəlxalq birliyin dəstəyini tələb etdiyi bir vaxtda, nə qədər acınacaqlı olsa da, qaçqın selinə qərq olan Avropada humanitar fəlakətin tənzimlənməsinə dair ölkəmizin təcrübəsinin öyrənilməsinə ehtiyac yaranmışdır.

Müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyev, həm də milli inkişaf strategiyasının tərkib hissəsi olan miqrasiya siyasəti modelinin əsasını qoymuşdur. Bu model fövqəladə miqrasiya və humanitar fəlakət vəziyyətində tarixi nailiyyətimiz olan suverenliyin taleyini də müəyyən etmişdir. İşğal və etnik təmizləmə nəticəsində yaranan zorakı miqrasiyanın tənzimlənməsi yönündə ilk dəfə Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi müstəqil miqrasiya siyasəti ölkəmizi qaçqın selində məhv etmək istəyən qüvvələrin arzusunu ürəylərində boğmuşdur.

Ümummilli Lider Heydər Əliyevin miqrasiya siyasətini bu gün davam etdirən dövlət başçısı İlham Əliyev 44 günlük Vətən müharibəsindən sonra həmin siyasətin ən böyük məqsədini –qaçqın və məcburi köçkünlərimizin etnik təmizləməyə məruz qaldıqları torpalara qaydışını həyata keçirmək yönündə əzmli və qətiyyətli fəaliyyətini ortaya qoymuşdur. Beynəlxalq tədbirlərdə, miqrantlarla bağlı problemlərin həllinə həsr edilən görüşlərdə, nəzərlər dövlət başçısının humanitar fəlakətin idarə olunmasında Azərbaycan təcrübəsi haqda nitqlərinə yönəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il fevralın 4-də Londonda keçirilən Suriya və regiona dəstək konfransına dəvət edilmiş, dövlətimizin bu sahədə təcrübəsindən danışmışdır. "Biz Suriya qaçqınlarının halına çox acıyırıq. Müstəqillik illərində 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüz edəndə Azərbaycan özü humanitar fəlakət və böhrandan əziyyət çəkib. Bu həqiqətən də humanitar fəlakət idi. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi bu problemin həlli yolunu bilirik" [5].

Azərbaycan dövlətinin nümunəsi bu gün miqrant böhranınına qərq olan Avropa üçün iki aspektdə çox faydalı ola bilər.

Birinci, problemin yaranma səbəblərinin aradan qaldırılması;

İkinci, qaçqın və məcburi köçkünlərlə bağlı proseslərin tənzimlənməsi.

Hər iki məsələnin qlobal siyasi gündəmə gətirilməsi həyati vacib məsələdir. Problemə belə kompleks yanaşma nəticəsində məlum olur ki, suveren dövlətlərin ərazilərinə iddia edən işğalçılıq siyasətinə, başqa ölkələrin daxili işlərinə müdaxilə cəhdlərinə son qoyulmazsa və daha vacibi, yaranmış münaqişələrin həllində ikili standartların tətbiqi davam edərsə, dünya birliyinin gələcəyi böyük təhlükə altındadır.

Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan həm Avropa, həm də Avrasiya üçün iqtisadi, hərbi siyasi-gücü və potensialı baxımından regionun lideri kimi əhəmiyyəti geosiyasi mərkəzlərindən hesab olunur.

Hazırda Azərbaycan vətəndaşları dünyanın bir neçə regionunda yaşayırlar və işləyirlər. Post-sovet məkanında, əsasən Rusiyada, Qərb ölkələrində, əsasən Almaniyada, Hollandiyada, həmçinin Fransada və ABŞ-də eləcə də Yaxın Şərqdə, əsasən Türkiyədə yaşayırlar və işləyirlər.

Müraciət edənlərin əksəriyyəti gənc və xaricdə təhsil almış insanlardır. Miqrasiya edənlərin 41 faizi ABŞ və Kanadaya getməyə səy göstərirlər, onların 28 faizi xaricdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, 14 faizi xaricdə təhsil almaq, 14 faiz insan isə emiqrant statusu almaq istəyirlər. Statistikaya əsasən Azərbaycandan kütləvi miqrasiya yoxdur.

Qafqaz regionu ölkələri arasında Azərbaycan Almaniya ilə münasibətləri yaxşı olan dövlətdir. Almaniya dünyanın ən çox mühacirət edilən ölkələrindəndir. Bu ölkəyə emiqrasiyanın ilkin səbəbi əməklə bağlıdırsa, son on ildə daha yaxşı yaşayış səviyyəsi, təhsil alma imkanları və digər amillər dünyanın müxtəlif ölkələrindən buraya əhali axınının genişlənməsinə gətirmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2007-ci ilə aid göstəricilərinə əsasən Azərbaycanda 30 mindən çox müvəqqəti məskunlaşmış mühacir olmuşdur və onların təxminən 15 min nəfəri qeyri-qanuni əmək miqrantları idilər. Azərbaycanda həmçinin İran İslam Respublikasından, Rusiyadan, Əfqanstandan, İraq Respublikasından olan 11 min nəfərədək qaçqın statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər də vardır [6].

Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə yaradılmış Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət istiqamətlərindən biri də ölkələrarası dialoqun gücləndirilməsi, müvafiq sahələr üzrə əməkdaşlığın, qanunsuz miqrasiya ilə mübarizə sahəsində əlaqələrin genişləndirilməsi, miqrasiya və inkişafın əlaqəli idarəolunması sahəsində praktiki və innovativ təcrübələrin tətbiqi məqsədilə xarici dövlətlərin müvafiq qurumları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsidir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti miqrasiya proseslərinin daha effektiv tənzimlənməsi üçün mümkün beynəlxalq alətlərdən istifadə edir, miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti qurumları ilə ikitərəfli və çoxtərəfli əsaslarla əməkdaşlıq edir.

Miqrasiya proseslərinin tənzimlənməsi işinin təkmilləşdirilməsi və miqrasiya orqanlarında qulluq keçən əməkdaşların bacarıqlarının artırılması məqsədilə Dövlət Miqrasiya Xidməti qabaqcıl ölkələrin miqrasiya üzrə məsul qurumları, eyni zamanda beynəlxalq təşkilatlarla birgə bir sıra uğurlu layihələr həyata keçirmiş və bu istiqamətdə işlər hazırkı dövrdə də davam etdirilməkdədir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti həmçinin, beynəlxalq dialoq alətləri, o cümlədən qaçqınların müdafiəsi və beynəlxalq miqrasiya üzrə məşvərətçi proses olan Almatı Prosesi, Aİ ölkələri, Şengen ölkələri, Şərq Tərəfdaşlığı və Qərbi Balkan, Mərkəzi Asiya ölkələri, Rusiya və Türkiyə arasında miqrasiya sahəsində əməkdaşlığa təkan vermək məqsədilə yaradılmış Praqa Prosesi və miqrasiyanın dayanıqlı tənzimlənməsi sisteminin yaradılması istiqamətində fəaliyyət göstərən 50-dən çox hökumət və 10 beynəlxalq təşkilatdan ibarət Budapeşt Prosesi çərçivəsində əməkdaşlıq əlaqələrini genişləndirir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Heydər Əliyev. 1996 –cı il oktyabrın 16 –da Asiya Müsəlmanları Komitəsinin təşəbbüsü ilə qaçqınların və məcburi köçkünlərin problemlərinə həsr olunmuş Beynəlxalq Konfrans.*

2. *Бустани Х. «Столкновение цивлизаций» и «Вайна с исламом».*

*Monthly Review. http://islam.ru;*

3. *Abdullayev F. XXI əsrin geosiyasətində yeni paradiqma: miqrasiya. Monoqrafiya .Bakı elm nəşriyyatı. 2016-cı il.*

4. *http://www.muslimpopulation.com/Europe/*

5. *İlham Əliyev. Londonda "Suriyaya və regiona dəstək" konfransında çıxışı.*

6. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.http://www.s tat.gov.az/menu/13/*



**Тельман Алимуса оглы Нифталиев**
***доцент кафедры гуманитарных наук Азербайджанского государственного экономического университета, доктор философии по социологии***


**Влияние глобальной миграции на геополитические интересы Азербайджана**


**РЕЗЮМЕ**

Научное изучение международной миграции особенно актуально в современную эпоху, поскольку понимание причин и последствий миграции позволяет правительствам разрабатывать более целенаправленную политику. Миграция охватывает множество взаимодействующих факторов, включая экономические, социальные, политические и экологические аспекты.

В связи с этим управление международной миграцией также имеет большое значение для Азербайджана, который является важной частью обновляющегося мира.


**Ключевые слова:** *миграция, глобализация, беженец, иммигрант, модернизация*


**Telman Alimusa oglu Niftaliyev**
***Associate Professor of the Department of Humanities Azerbaijan State University of Economics, PhD in Sociology***


**The Impact of Global Migration on Azerbaijan's Geopolitical Interests**


**SUMMARY**

The scientific study of international migration is particularly relevant in the modern era, as understanding the causes and consequences of migration allows governments to develop more targeted policies. Migration encompasses a multitude of interacting factors, including economic, social, political, and environmental aspects.

Therefore, managing international migration is also of great importance for Azerbaijan.


**Keywords:** *migration, globalization, refugee, immigrant, modernization.*


*Rəyçi: Fəlsəfə üzrə fəlsəfə doktoru Günay Piriyeva*
*Məqalə redaksiyaya daxil olub: 30 09.2025*
*Çapa qəbul olunub: 22. 11.2025*

*The date of the admission of the article to the editorial office: 30 09.2025*
*Accepted for publication: 22. 11.2025*